

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 185 (21.595)

4 oktyabr 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də İran İslam Respublikasının daxili işlər naziri Əbdülrza Rəhmani Fəzlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb. Prezidentlər səviyyəsində mütəmadi görüşlərin keçirilməsinin önəmini qeyd edən Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin bu ilin avqust ayında Azərbaycana və özünün İrana son rəsmi səfərini məmnunluqla xatırlayıb. Ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə daha da yüksək səviyyəyə qaldırılmasının əhəmiyyətini vurğulayan dövlətimizin başçısı xüsusilə Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın inkişafının vacibliyini qeyd edib. Prezident İlham Əliyev İran İslam Respublikasının daxili işlər naziri Əbdülrza Rəhmani Fəzlinin ölkəmizə səfərinin bu sahədə əməkdaşlığın daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirib.

Əbdülrza Rəhmani Fəzli son illər ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişaf etdiyini və çox yaxşı nəticələr əldə olunduğunu vurğulayıb.

Görüşdə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Avstraliya İttifaqının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Martin Larsenlə görüşmüşdür.

Qonağı salamlayan Ali Məclisin Sədri onun Naxçıvana səfərinin əhəmiyyətini qeyd etmiş və ölkələrimiz arasındakı münasibətlərdən danışmışdır. Muxtar respublikanın inkişafı sahəsində görülən işləri diqqətə çatdıran Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Avstraliya İttifaqı arasında qarşılıqlı əlaqələrin yaradılması üçün potensialın olduğunu bildirmişdir.

Göstərilən diqqətə görə minnətdarlıq edən Ceyms Martin Larsen Naxçıvanda olmaqdan məmnunluğunu bildirmişdir. Qonaq Avstraliya İttifaqının Azərbaycanın siyasətini dəstəklədiyini və ikitərəfli münasibətlərin inkişaf etdiyini bildirmiş, Naxçıvana səfərin əlaqələrin inkişafına töhfə verəcəyini vurğulamışdır.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Avstraliya İttifaqının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Naxçıvandan xoş təəssüratlarla ayrılıb

***Oktyabrın 1-də muxtar respublikaya səfər edən Avstraliya İttifaqının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Martin Larsen Naxçıvanın yerli istehsal məhsullarının nümayiş etdirildiyi sərgiyə baxıb, muxtar respublikanın tarixi, mədəniyyət və səhiyyə müəssisələri, turizm məkanları ilə tanış olub.***

Həmin gün qonaq əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib. Məlumat verilib ki, Azərbaycanın müasir dövlətçilik tarixi və ümummilli liderin siyasi irsi ilə maraqlanan hər kəs Heydər Əliyev Muzeyinə üz tutur, tədqiqatçılar burada elmi axtarışlar üçün dəyərli məlumatlar əldə edirlər. Muzeyin fondunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən 4 min 600-dən çox eksponat var, kitabxana fondunda isə 589 adda 1200-dən çox kitab, jurnal, albom mövcuddur.

Avstraliyalı diplomat daha sonra Naxçıvan Biznes Mərkəzində olub, burada yerli məhsulların nümayiş etdirildiyi sərgiyə baxıb.

Bildirilib ki, hazırda burada muxtar respublikada 100-ə yaxın istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən müxtəlif tikinti, ərzaq, geyim, mebel nümunələri nümayiş olunur. Muxtar respublikada iri özəl sektor təmsilçiləri olan “Gəmiqaya Holdinq”, “Dizayn Holdinq”, “Cahan Holdinq” Şirkətlər ittifaqları, “Zümrüd” Kiçik Müəssisəsi, “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti, Babək “Sirab” Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının məhsulları da sərgidə öz yerini alıb.

“Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti ilə tanışlıq zamanı qonağa məlumat verilib ki, muxtar respublikada sahibkarlıq mühitinin formalaşdırılması, iş adamları üçün əlverişli şəraitin yaradılması “Badamlı” mineral suyunun da əvvəlki şöhrətini özünə qaytarıb, 2004-cü ildə özəlləşdirilən müəssisədə daha keyfiyyətli məhsul istehsalına başlanılıb. “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyəti müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat verib. Naxçıvan şəhərində 2,1 hektar ərazini əhatə edən və ümumi sahəsi 9 min 590, istehsal sahəsi isə 3 min 600 kvadratmetr olan yeni istehsal müəssisəsi 2009-cu ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilib.

Səfir Ceyms Martin Larsen “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini də ziyarət edib. Naxçıvanqala ilə tanışlıq zamanı bildirilib ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın ən qədim insan məskənlərindən biridir. Bunun nəticəsidir ki, bu ərazidə tarixin bütün dövrlərinə aid zəngin mədəniyyət və memarlıq nümunələri yaradılıb. Bu abidələr arasında Naxçıvanqalanın mühüm əhəmiyyəti vardır. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılıb, tarixi ərazidə yenidənqurma işləri aparılıb, qalanın əvvəlki görkəmi özünə qaytarılıb.

“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə tanışlıqdan sonra Avstraliya İttifaqının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Duzdağ Fizioterapiya Mərkəzinin fəaliyyəti ilə də maraqlanıb. Məlumat verilib ki, 1979-cu ildə qədim duz mədənlərinin bazasında yaradılan mərkəzdə bronxial-astma və ağciyər bronx sisteminin



digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunur. Naxçıvanda havanın təmiz, iqlimin quru, günəşli günlərin sayının çox olması 350 yerlik xəstəxanada rütubətin səviyyəsini normal saxlayır. Müalicə turizminin inkişafı baxımından mühüm əhəmiyyət daşıyan mərkəzə dünyanın bir çox ölkələrindən müraciətlər olur.

Avstraliya İttifaqının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Ceyms Martin Larsenin Naxçıvan Muxtar Respublikasına səfəri oktyabrın 1-də başa çatıb.

Ceyms Martin Larsen “Şərq qapısı” qəzetinə müsahibə verib. Muxtar respublikaya ilk dəfə səfər edən qonaq regionun inkişafını yüksək qiymətləndirib və Naxçıvanda gördüklərinin onda xoş ovqat yaratdığını bildirib. Əvvəlcə səfərinin məqsədi barədə danışan səfir deyib:

– Mən ilk dəfədir ki, Azərbaycan Respublikasının bir bölgəsinə səfər edirəm. Məmnunam ki, ilk səfər etdiyim bölgə məhz Naxçıvan Muxtar Respublikası oldu. Naxçıvana səfərimin məqsədi, ilk növbədə, maraq cəlb edən bu gözəl diyar haqqında məlumat əldə etmək və eyni zamanda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Avstraliya İttifaqı arasında əməkdaşlıq imkanlarını araşdırmaqdır. Biz burada keçirdiyimiz görüşlərdə turizmin inkişafı, ticarət və investisiya imkanlarının təşviq edilməsi məsələlərini müzakirə etdik, iş adamlarımızın qarşılıqlı fəaliyyəti barədə danışdıq. Avstraliyalı iş adamlarının Naxçıvanda, naxçıvanlı iş adamlarının isə Avstraliyada biznes fəaliyyəti ilə məşğul olması barədə qarşılıqlı, səmərəli müzakirələr apardıq. İnanıram ki, qısa zaman sonra bu, öz nəticəsini verəcəkdir.

Biznes Mərkəzində olarkən muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin istehsal etdiyi məhsullar barədə ətraflı məlumat verildi. Həmin məhsulları nəzərdən keçirdim. Belə qənaətə gəldim ki, Naxçıvan Muxtar Respublikasında sahibkarlıq xeyli inkişaf edib. Burada çox gözəl biznes imkanları var.

Bu səfərimin məqsədlərindən biri də bu imkanları araşdırmaq idi. Mən Avstraliya İttifaqının ilk rəsmi dövlət nümayəndəsiyəm ki, Naxçıvana gəlmişəm. Biz bu məlumatları əldə edik, onları təhlil edəcəyik. Mən belə hesab edirəm ki, biz üç sahədə daha çox əməkdaşlıq edə bilərik. Bu məna da ki, bu sahələrdə Avstraliya İttifaqının böyük təcrübəsi var. Həmin layihələrdən birincisi kənd təsərrüfatı sahəsini əhatə edə bilər. Məlumdur ki, Avstraliyada kənd təsərrüfatı sahəsi böyük inkişaf yolu keçib. Avstraliya kənd təsərrüfatı məhsullarının ixracatçıları arasında dünyada liderdir. Bizdə bu sahədə böyük təcrübə əldə olunub, elm və texnologiya inkişaf edib.

İkincisi, dağ-mədən sənayesi sahəsidir. Mənə deyildi ki, Naxçıvan zəngin yeraltı təbii sərvətlərə malikdir. Bu sahədə avstraliyalı biznesmenlər ilə naxçıvanlı sahibkarlar arasında faydalı işgüzar əlaqələr qurula bilər. Üçüncü sahə texniki peşə təhsili və təlimidir. Bu sahədə də Avstraliyanın böyük təcrübəsi var. Məsələn, inşaat sahəsində mütəxəssislərin yetişdirilməsi, su təchizatı sistemlərinin qurulması sahəsində əməkdaşlıq mümkün ola bilər.

Mən avstraliyalı biznesmenlərin marağını Naxçıvana yönəltmək istərdim. Çünki burada sürətli inkişaf prosesləri gedir. Naxçıvanda fəaliyyət göstərən hər hansı bir şirkət isə Avstraliyaya investisiya qoyarsa, biz buna sevinərik. Hesab edirəm ki, hər iki tərəfdə bu məsələdə güclü potensial var.

Səfər çərçivəsində biz Heydər Əliyev Muzeyini ziyarət etdik, muxtar respublikanın gəzməli-görməli yerləri, qədim tarixi abidələri ilə tanış olduq. Təbii şəfa mənbəyi olan Duzdağ Fizioterapiya Mərkəzini gəzdik. Doğrudan da, muxtar respublikaya səfərim çox maraqlı və mənalı keçdi. Mən Naxçıvandan zəngin təəssüratlarla ayrılıram və imkan düşən kimi yenidən muxtar respublikaya gələcəyəm.

**Rauf ƏLİYEV**

*Şəhərləşən kəndlərimiz*

# Müasirliyə qovuşan yaşayış məntəqələrimizin sayı artır

## *Kompleks quruculuq tədbirləri aparılmış Məzrə kəndindən reportaj*

*Babək rayonunun daha bir yaşayış məntəqəsi – Məzrə də hərtərəfli dövlət qayğısı hesabına müasir Azərbaycan kəndinə çevrilib. Məlumat üçün bildirək ki, bundan bir qədər əvvəl Xəlilli və Yarımca kəndlərində kompleks quruculuq tədbirləri həyata keçirilib, bir neçə obyekt inşa olunaraq istifadəyə verilib. Hazırda Hacıvar və Badaşqan yaşayış məntəqələrində quruculuq tədbirləri aparılır. Davamlı xarakter alan belə tədbirlər hesabına rayonun əksər kəndləri öz simasını tamamilə dəyişib. Son vaxtlara qədər Məzrə də, necə deyərlər, gözdənuzaq, könüldəniraq yaşayış məntəqələrindən biri olub. Kəndin dövlət qurumları pərakəndə şəkildə fəaliyyət göstəriblər. Buradakı məktəb binası müasir tələblərə cavab verməyib. Səhiyyə xidməti aşağı səviyyədə, kəndin yolları bərbad vəziyyətdə olub. Ancaq muxtar respublikada quruculuq tədbirlərinə başlanılanda və getdikcə coğrafiyası genişləndikcə məzrəlilər burada da belə tədbirlərin həyata keçiriləcəyinə inanıblar və bu gün qürur hissi keçirirlər ki, artıq Məzrə də onların arzuladıqları yaşayış məntəqəsidir.*



Yeni obyektlərin açılış mərasimində çıxış edən Ali Məclisin Sədri kənd adamlarına öz tövsiyələrini verərək deyib: ***"Məzrə kəndində həyata keçirilən quruculuq işləri insanların rahat yaşamasına xidmət edir. Vaxtilə kənddə bir çox sahədə problemlər mövcud idi. Lakin bu gün Məzrə müasir Azərbaycan kəndinə nümunədir. Kənddə bütün sosial problemlər həll edilmiş, yeni yol, məktəb binası, kənd mərkəzi, feldşer-mama məntəqəsi, xidmət mərkəzi istifadəyə verilmiş, müasir rabitə sistemi qurulmuş, sürətli internetdən istifadə imkanları yaradılmışdır. Kəndlərdə həyata keçirilən tədbirlər dövlətimizin öz vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir. Sakinlər bu qayğıdan səmərəli istifadə etməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalı, məskunlaşma artmalıdır".***

Bir sözlə, şəhərlə kənd arasında olan fərqin aradan götürülməsini bu kəndin timsalında bütün çalarları ilə görmək mümkündür. Bunu bir azdan həmsöhbət olacağımız insanlar da təsdiq edəcəklər.

Budur, kənd məktəbinin və mərkəzinin yerləşdiyi böyük ərazidə qarşımıza iki nəfər çıxır. Bir cavan oğlan yaşlı bir qadının qoluna girib. Şirin-şirin söhbət edirlər. Valentina İqnatyevna Rusiya Federasiyasının vətəndaşıdır. Onun qızı 20 il bundan əvvəl məzrəli bir gənclə – Bəhlul Həsənovla ailə qurub. Buraya iki-üç ildən bir qızını və nəvələrini görməyə gəlir. Budəfəki gəlişində Məzrədə yaşamağı qərara alıb. Deyir ki, 80-ə yaxın yaşı var. İxtisasca mühəndis-texnoloqdur. Rusiyanın bir çox yerlərində olub, kəndlərini gəzib. Etiraf edir ki, Naxçıvanda gördükləri tamamilə başqadır. Burada həyata keçirilən belə tədbirləri insana qayğının ifadəsi kimi dəyərləndirən Valentina İqnatyevna onu da vurğulayır ki, bu kəndin təmiz suyu və havası, mehriban və səmimi insanları, müasir infrastrukturu var. Bura turistlər üçün ən gözəl məkandır.

Həmsöhbətim onu da dilə gətirir ki, Naxçıvanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqini eşidəndə buna inanmayıb. Məzrəyə gələrkən görüb ki, bu, həqiqətdir və kəndin bugünkü görkəmini əks etdirən fotoşəkilləri Rusiya Federasiyasında yaşayan qohumlarına göndərib.

Kənd məktəbinin müəllimi Vaqif İsayev söhbətə qoşulur: – Həmişə düşünürdüm ki, muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndləri belə, müasirləşdirilir, nə üçün Məzrədə belə tədbirlər görülmür? Deməli, hər şeyin öz vaxtı var. Artıq bu gün Məzrə də müasir kəndə çevrilib. Məktəb, kənd və xidmət mərkəzləri, kənd mərkəzində feldşer-mama məntəqəsi və digər qurumlar üçün müasir şərait yaradılmış iş otaqları öz qapılarını məzrəlilərin üzünə açıb.

Kəndin girəcəyində gözoxşayan 2 binadan biri kənd mərkəzi, digəri isə məktəb binasıdır.

– Məzrədə məktəb binası müasir layihə əsasında inşa olunub. Bu gün məktəbdə 138 şagird təhsil alır. 12 uşaq isə məktəbəqədər hazırlıq sinfinə qəbul edilib. Üç mərtəbədən ibarət olan binada üçü elektron lövhəli olmaqla, 15 sinif, kompüter, müəllimlər və şahmat otaqları, hərbi kabinə, 3 laboratoriya vardır. İstifadəyə verilən yeni bina 270 şagird yerlikdir. Bu isə o deməkdir ki, bir neçə onillik üçün Məzrə kəndində məktəb binasının böyüdülməsinə ehtiyac olmayacaq, – deyən icra nümayəndəsi Məhəmməd Quliyev bizə məktəbə baş çəkməyi məsləhət görür. Məktəbdə şaqraq uşaq səsləri hakimdir. Müəllim və şagirdlərin istifadəsinə verilən yeni bina onların hədsiz sevincinə səbəb olub. Məzrə kənd tam orta məktəbinin müəllimləri Əminə Rzayeva, Əzim Mirzəyev onlara yaradılmış bu şəraiti muxtar respublikada təhsilin inkişafına göstərilən qayğı kimi dəyərləndirirlər. Belə qayğının onların məsuliyyət hissini daha da artırdığını dilə gətirirlər.

Məktəbin direktoru Pəri Abdullayeva müəllimlərin öz vəzifə borclarına bundan sonra da layiqincə yanaşacaqlarına əminliyini vurğulayır. Deyir ki, bu gün bütün müəllimlərin qarşısında mühüm vəzifələr durur. Muxtar respublikanın qədim tarixini, mədəniyyətini, bugünkü inkişaf səviyyəsini şagirdlərimizə aşılamaq, onları vətənpərvər ruhda, dövlətimizə, dövlətçiliyimizə sədaqət prinsipləri əsasında tərbiyə etmək şərəfli və məsuliyyətli bir işdir.

Bu fikri kənd tam orta məktəbinin müəllimi Qürbət Orucov təsdiqləyərək deyir ki, bu gün onların üzərinə ikiqat vəzifə düşür. Biri odur ki, yaradılmış şəraitdən səmərəli istifadə etsinlər. İkincisi isə qurulanları, yaradılanları qoruyub saxlaya bilsinlər.

Məktəbdən çıxıb kəndi gəzirik. Kənd sakini Qabil Xələfovla görüşürük. O deyir ki, ömrüm boyu torpaqda çalışmışam. İndi də çalışıram. Dövlətimizin yaratdığı şəraitdən istifadə edərək ailəmlə birlikdə bizə verilən pay torpaq sahəsində əkinçiliklə məşğul olur, yaşayış səviyyəmizi yaxşılaşdırırıq. Bunun üçün dövlətimizə minnətdaram. Həm ona görə ki, dövlətimizin diqqət və qayğısı sayəsində kəndimiz müasir yaşayış məntəqəsinə çevrilib, həm də kənd sakinlərinin problemləri həll edilib, onların təsərrüfatın müxtəlif sahələrində çalışmalarına, məhsul bolluğu yaratmalarına şərait yaradılıb.

Kəndin 95 yaşlı sakini Abbas Quliyevlə tanış oluruq. Bu el ağsaqqalı sovet dönəmində kəndin kolxozunda çalışıb. Deyir ki, Məzrənin bu gününü görüb xeyli cavanlaşmışam. Bir kənddə bu qədər iş görmək kiçik məsələ deyil. Nəvələrim, bilirsinizmi, öz məktəblərindən necə razılıqla danışırlar? Mən də deyirəm ki, tikilənlərin qədrini bilin, müəllimlərinizin sözünə qulaq asın, dərslərinizi yaxşı oxuyun. Bu gün oxumaq zəmanəsidir. Sizə də yaxşı oxumaq üçün şərait yaradılıb. Bizim dövrümüzdə belə şərait yox idi. Bütün bunlar kənd adamlarına dövlətimizin ən böyük hədiyyəsidir.

Kənd mərkəzində yerləşən feldşer-mama məntəqəsində tibb bacısı vəzifəsində çalışan Gülnar Zamanova onlara belə şərait yaradıldığı üçün iş yoldaşları adından xeyli razılıq edir. Dünənə qədər darısqal və uyğunlaşdırılmış bir binada fəaliyyət göstərdiklərini xatırladır. Yeni səhiyyə ocağında kənd camaatına daha yüksək səviyyədə tibbi xidmət göstərəcəklərini bildirir.

Yolumuzu xidmət mərkəzindən salırıq. Mərkəzin qarşısında torpaq mülkiyyətçisi Kamil Sadiqov və başqaları ilə həmsöhbət oluruq. Kənd adamlarının dövlətimizə, dövlətçiliyimizə sədaqətini onların söhbətlərindən hiss etmək çətin deyil.

Nurəddin Muradov kəndin yaşlı sakinlərindən biridir. O, bütün bunları ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda insan amilinə, onun layiq olduğu səviyyədə yaşamasına göstərilən qayğı kimi dəyərləndirir:

– Muxtar respublikamız sürətlə inkişaf edir. Bunu hamımız görürük. Kəndlərimizin belə abadlaşdırılması da bu inkişafın nəticəsidir. İnkişaf olan yerdə insanların qurub-yaratmaq əzmi də yüksəlir. Bu inkişafın nəticəsidir ki, bir neçə il əvvəl kəndlərimizdə ya bir məktəb binası, ya həkim ambulatoriyası inşa olunurdusa, indi kompleks quruculuq işləri aparılır. Sevinirik ki, Məzrədə də bu işlər görülüb. Yollarımıza asfalt döşənib. Rabitə, elektrik və qaz xətləri yenidən çəkilib. Bu isə həm də məişət şəraitimizi yaxşılaşdırıb. Bunun üçün hər bir məzrəli dövlətimizə minnətdarlıq edir.

* * *

Bu gün Məzrə sanki həyata yenidən vəsiqə alıb. Elə əsl həqiqətdə də belədir. Köhnəlikdən əsər-əlamət qalmayıb. Bu, muxtar respublikada insan amilinə qayğı ilə yanaşı, həm də regionumuzda bərqərar olunmuş əmin-amanlığın, sosial-iqtisadi inkişafın bəhrəsidir.

**Muxtar MƏMMƏDOV**

*İstehsal müəssisələri*

# *"Ləzzət Broyler"in* məhsulları paytaxt Bakı bazarına çıxarılacaq

***İqtisadi aktivliyin yüksəldilməsi məqsədilə sahibkarlara güzəştli şərtlərlə maliyyə dəstəyinin göstərilməsi öz bəhrəsini verib, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələri həyata vəsiqə alıb, ümumi daxili məhsul istehsalında özəl bölmənin payı artaraq 87 faizi ötüb. Özəl bölmənin inkişafı əhalinin tələbatının yerli istehsal hesabına yüksəkkeyfiyyətli məhsullarla təmin olunmasına da əlverişli şərait yaradıb.***



Daxili bazarı yüksəkkeyfiyyətli yerli ərzaq məhsulları ilə təmin edən müəssisələrdən biri də 2011-ci ilin noyabr ayında yaradılmış "Ləzzət Broyler" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib, Sahibkarlığa Kömək Fondundan 2012-ci ilin may ayında 400 min manat, dekabr ayında isə 650 min manat dövlət maliyyə dəstəyi göstərilib. Ətlik istiqamətli quşçuluq təsərrüfatının yaradılması üçün Babək rayonunun Kərimbəyli kəndində 20 min 674 kvadratmetr, kəsim və paketləmə istehsalı sahəsi üçün isə Hacıvar kəndində 5013 kvadratmetr torpaq sahəsi ayrılıb. Quşçuluq təsərrüfatında quşların bəslənilməsi üçün hər biri 15 min baş quş tutumuna malik 5 bina inşa olunub. Həmin binalarda Türkiyənin "Tavsan" firmasının istehsalı olan, kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş müasir texnoloji avadanlıqlar quraşdırılıb, quşların yemlənməsi və suvarılması üçün tam avtomatlaşdırılmış xətt istifadəyə verilib, isitmə və soyutma sistemi yaradılıb. Onu da qeyd edək ki, quşçuluq təsərrüfatları əvvəllər qarışıq qüvvəli yemi və inkubator cücələrini xaricdən alıb əlavə daşınma xərci çəkir, vaxt itkisi ilə üzləşirdilərsə, artıq muxtar respublikamızda yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması ilə bu problem aradan qaldırılıb. Quşların bəslənməsi üçün qarışıq qüvvəli yem "Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının qarışıq qüvvəli yem istehsalı müəssisəsindən, inkubator cücələri isə "Araz-3" Məhdud Məsuliyyətli Cəmiyyətindən alınır. Quşlar müəyyən olunmuş temperaturda 45-50 gün müddətində qapalı şəraitdə bəslənilir, onlara baytar həkim tərəfindən nəzarət edilir.

Quşların kəsimi və paketlənməsi üçün Hacıvar kəndində ayrılmış ərazidə istehsal sahələri, müxtəlif temperatura malik ayrı-ayrı soyuducu anbarlar tikilib istifadəyə verilib. İstehsal sahəsində Türkiyənin "Alberk" firmasından alınmış, istehsal gücü saatda 1500 baş quş olan tam avtomatlaşdırılmış xətt, soyuducu anbarlarda isə Türkiyə və Almaniya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Kərimbəyli kəndindəki quşçuluq təsərrüfatının tikintisinə 569 min 883 manat, avadanlıqların alınmasına 174 min 861 manat, Hacıvar kəndində fəaliyyət göstərən kəsim və paketləmə istehsalı sahəsinin tikintisinə 543 min 568 manat, avadanlıqların alınmasına 675 min manat vəsait sərf olunub. Ümumilikdə, müəssisənin tikintisinə və texnoloji avadanlıqların alınmasına 1 milyon 963 min manatdan çox vəsait sərf olunub ki, bunun da 1 milyon 50 min manatı Sahibkarlığa Kömək Fondundan, 913 min manatı isə daxili imkanlar hesabına ödənilib.

Sanitar-gigiyenik qaydalara və texnoloji proseslərə ciddi əməl olunan müəssisədə quşların bəslənilməsindən tutmuş satışa çıxarılmasınadək bütün texniki normalara ciddi riayət olunur. Quşların kəsilməsi əl ilə aparılır, 6 mərhələdə təmizləmədən sonra 14 çeşiddə quş əti müxtəlif çəkilərdə "Ləzzət Broyler" tanıtım nişanı vurulmuş xüsusi paketlərə yığılır. Hər bir paketin üzərində toyuq ətinin çəkisi, istehsal tarixi, saxlanma şəraiti və istifadə müddəti göstərilir. Sonrakı mərhələdə isə məhsul hər birinin tutumu 5 ton olan 2 ədəd xüsusi soyuducuda 8 saat müddətində mənfi 35 dərəcə temperaturda dondurulur və hər birinin tutumu 40 ton olan 3 ədəd soyuducuda 18 dərəcə temperaturda saxlanılır. Buradan isə soyuducu kameralarla təmin olunmuş xüsusi avtomaşınlarla sifarişə uyğun olaraq ayrı-ayrı ticarət obyektlərinə göndərilir.

"Ləzzət Broyler" Məhdud Məsuliyyətli Cəmiyyəti quş əti istehsalına görə bazarda özünəməxsus yer tutub, rəqabətqabiliyyətli müəssisəyə çevrilib. Daxili bazarın tələbatından artıq istehsal olunan quş ətinin paytaxt Bakı bazarında və ölkəmizin digər regionlarında satışa çıxarılması nəzərdə tutulur.

**Kərəm HƏSƏNOV**

*AZAL-ın satmadığı elektron bilet*

Əslən Naxçıvandan olan qohumlar, dostlar, tanışlar həmin diyara "Yola düşürük!" deyəndə, hər zaman mənə elə gəlirdi ki, söhbət hansısa xarici ölkəyə edilən səfərdən gedir. Bu heç də Naxçıvanın coğrafi cəhətdən hansı bölgədə yerləşməsi və ya inzibati ərazi vahidi kimi hara tabe olması ilə əlaqədar bilgimin zəif olmasına bağlı məsələ deyil. Azərbaycan hüdudlarından kənara gedən və oralardan gələn çox adamı qarşılayıb yola saldığım üçün bilirdim ki, Naxçıvana getmək proseduru onlardan heç nə ilə fərqlənmir. Əksinə, elə olur ki, hansısa xarici ölkəyə gedib-gəlmək adama Naxçıvana edilən səfərdən daha asan başa gəlir. Xüsusilə də bayram günləri, ali məktəblərdə tədris ilinin başlandığı və sona çatdığı dönəmdə Naxçıvana gedib-gəlmək üçün bilet tapmaq müşkülə çevrilir. Yəqin ki, bilet deyəndə, oxucular təyyarədən söhbət etdiyimi biləcəklər. Çünki Naxçıvana getmək üçün təyyarəyə bilet ala bilərsən. Səbəb bəllidir! Təəssüf ki, Ermənistanın yürütdüyü işğalçılıq siyasəti nəticəsində Azərbaycanın ayrılmaz parçası olan qədim türk diyarının qismətinə blokadada yaşamaq kimi acı tale yazılıb. Dəmir yolu ilə gediş-gəliş tam bağlanıb.

Təyyarəyə alternativ yol kimi İran üzərindən avtomobillə Naxçıvana gedib-gəlmək də mümkündür. Ancaq çox yorucu bir proses olduğu üçün təyyarə naxçıvanlıların yeganə nicat vasitəsi sayılır. Mən SSRİ-nin mövcud olduğu, yəni məktəb yaşlarıma təsadüf edilən zamanlarda bir neçə dəfə Naxçıvana qatarla getmişəm. Dəmir yolu ilə Naxçıvana çatmağa bir sutka vaxt sərf edilsə də, müqayisə aparanlar deyir ki, qatarla edilən səfər daha rahat idi. Doğrusu, bu fikirdə olanlara əvvəl təəccüblə baxırdım. Fikirləşirdim ki, bir sutka ilə bir saatı necə müqayisə edib birinciyə üstünlük vermək olar?

Təyyarə ilə Naxçıvana etdiyim ilk səfər zamanı şahidi oldum ki, belə təzadlı müqayisədən alınan nəticə təsadüfən meydana çıxmayıb. Bəri başdan deyim ki, AZAL-ın Naxçıvan əhalisi ilə bağlı yürütdüyü "şirkət siyasəti"ni heç bəyənmədim. Mənim səfərim Qurban bayramı ərəfəsinə düşdü. Bəllidir ki, belə vaxtlarda biletlə bağlı tələbat çox, təklif isə az olur. AZAL əlavə reysləri çox xəsisliklə saldığı üçün əhalinin bilet tələbatı tam ödənilmirdi. AZAL-ın Naxçıvana təşkil etdiyi reyslərlə bağlı digər anlaşılmazlıq elektron biletlərin satılmaması ilə bağlıdır. Bu qayda ilə bilet almağa cəhd etsəm də, dedilər ki, analoji xidmətdən istifadə olunmur. Azərbaycan hakimiyyəti elektron hökumətə keçidlə bağlı uğurlu və tələbkar siyasət həyata keçirdiyi bir zamanda AZAL-ın niyə adi elektron bilet satışına belə laqeyd yanaşması çox maraqlıdır… Çətinliklə olsa da, bir neçə gün əvvəl kassaya yaxınlaşdıqdan sonra planlaşdırdığım vaxt üçün bilet tapa bildik. Ancaq eyni anda geriyə qayıtmaq üçün bileti sifariş verə bilmədim. Dedilər ki, mənə lazım olan vaxtda muxtar respublikadan Bakıya qayıdan çox olduğundan biletlərin hamısı satılıb.

*Bakı Hava Limanında adi su od qiymətinə satılır*

Bakı Beynəlxalq Hava Limanında qeydiyyatdan keçmək proseduru çox yüksək səviyyədə həyata keçirilir. Lazımi səviyyədə təşkil olunan təhlükəsizlik tədbiri də öz yerində. Ancaq bəzi neqativlikləri vurğulamaq lap yerinə düşər. Naxçıvana uçan reysi gözləmək üçün təşkil olunan zalda fəaliyyət göstərən mağazada bütün məhsullar

# Atabəylər yadigarı, Təbrizin doğma qardaşı olan Naxçıvandan doymadım

bazar qiymətindən 3 dəfə baha satılır. Adi bir su üçün tələb olunan qiymət adamı dəhşətə gətirir. Təyyarəyə miniyin başlandığı ilə bağlı elan veriləndən sonra sərnişinlər pilləkənlə balaca bir otağa endirilir. Otaq çox darısqal olduğu üçün sərnişinlərin çoxu qapının açılmasını ayaq üstə gözləməli olur.

Uçuşa hazırlaşanların arasında yaşlıların, əliuşaqlı valideynlərin olduğunu nəzərə alsaq, heç də xoşagəlməyən mənzərəni seyr etmiş olursan. Sonra mənə məlum oldu



ki, sərnişinlər bu otaqda uçacaqları təyyarənin trapına onları aparacaq avtobusu gözləyirlər. Halbuki Beynəlxalq Hava Limanının şəraiti birbaşa gözləmə zalından təyyarəyə minməyə və ya eniş etməyə imkan verir.

Qeyd edim ki, Naxçıvan Hava Limanında təyyarəyə minik və eniş dediyim qayda əsasında həyata keçirilir. Naxçıvandan Bakıya gedən təyyarələrin qəbulu zamanı da trapdan enərək avtobusdan istifadə etməyə ehtiyac qalmır.

Bütün bu sadalananlardan belə nəticəyə gəlmək olar ki, AZAL Naxçıvana uçan sərnişinləri onlara əlavə əziyyət vermədən də, birbaşa təyyarəyə mindirə bilər.

*Təyyarədən görünən gecə əzəməti*

Təyyarəmiz gecə saatlarında uçuş etdi. Gecə uçuşundan istifadə edənlər bilir ki, enəcəkləri şəhərin əzəməti, inkişafı yuxarıdan daha aydın görünür. Bu məsələdə insana kömək edən başlıca faktor şəhərin işıqlandırılmasıdır. Təyyarədə "Naxçıvana enməyə hazırlaşırıq" elanını eşidəndə bir anlıq pəncərədən aşağı baxdım. Düzü, elə bildim ki, biz hansısa başqa şəhərə çatmışıq. Bəri başdan deyim ki, Naxçıvanın inkişaf səviyyəsini ilkin olaraq səciyyələndirən əsas amillərdən biri də onun yuxarıdan gecə görünüşüdür.

Hava limanına enən zaman ilk görmək istədiyim mənzərə taksilərin nizamlı düzülüşü və sürücülərin səliqəli uniformalarıydı. Çünki bu barədə muxtar respublikaya səyahət edən jurnalistlərin yazısından çox oxumuşdum. Taksilər gözümə dəymədi. Bizi qarşılayan dostumuz dedi ki, səhər burada Naxçıvan Beynəlxalq Hava Limanının "Qərb Terminalı"nın açılışının olacağı səbəbindən taksiləri müvəqqəti olaraq bir az aralıda saxlayırlar. Biz muxtar respublikada olduğumuz vaxtda Naxçıvan Beynəlxalq Hava Limanının "Qərb Terminalı" da istifadəyə verildi. Bu, o deməkdir ki, xaricə uçan reyslər ilə yerli reyslərin terminalı başqa olacaq.

*İnsaf göstəricisi*

Dostumun təklifi əsasında Naxçıvan şəhərində bir gecə gəzintisi etdik. Yolların genişliyi, planlı şəhərsalma mədəniyyəti və şəhərin işıqlandırılmasına, sözün əsl mənasında, valeh oldum. İşıqlandırma ilə bağlı diqqətimi çəkən vacib məqamı xüsusi qeyd etmək istərdim. Nə qədər axtardımsa, gecə yanan lampaların sırasında bir dənə də olsun sıradan çıxanını görmədim. Bu, o anlama gəlir ki, xırda olsa da, belə detala hər gün nəzarət olunur. Şəhəri bir az gəzdikdən sonra "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə daxil olub orada çay içmək qərarına gəldik. Əslən naxçıvanlı olan dostumuz bizə dedi ki, bu tarixi-memarlıq abidəsi muxtar respublika rəhbərinin təşəbbüsü əsasında yenidən bərpa olunub və qərara alınıb ki, muzeyin həyətində ictimai iaşə obyektləri də fəaliyyət göstərsin. Turistlərin belə məkanlara



axınını təmin etmək baxımından tamamilə düzgün verilən qərar hesab etmək olar.

Naxçıvanın təmiz havasında samovar çayını içib bir qədər də şirin söhbətdən sonra əvvəlcədən "bron" etdiyimiz mehmanxanaya yollandıq. Artıq gec olmasına baxmayaraq, oteldə canlanma hiss edilirdi. Səfərimiz Qurban bayramına təsadüf etdiyi üçün oteldə çoxlu sayda xarici qonaq gözə dəyirdi. Bizə ayrılan nömrəyə gedəndə nəzarətçiyə ilk verdiyim sual bu oldu: "Kondisioner işləyirmi?" Cavabında dedi ki, müəllim, bir balaca pəncərəni açsanız, yorğanla yatmalı olacaqsınız. Doğrudan da, bir azdan otaqda yorğan axtarmağa başladım. Sən demə, Naxçıvanın gündüzləri isti olsa da, gecələri sərin olurmuş.

Oteldə məni ilk təəccübləndirən məsələ xidmətlər və təklif olunan mallar üçün qiymətlərin ucuz olması oldu. Sadə bir faktı deyim. Gecə saat ikidə su içmək istədim. Zəng vurdum bir qazlı, bir qazsız su sifariş etdim. Səhər borcumun nə qədər olduğunu öyrənəndə dedilər ki, bir manat ödəməliyəm. Yəni oteldə gecə saat 2-də mənim otağıma gətirilən suyun bir şüşəsi 50 qəpik kimi hesablanıb. Ancaq bu yay Şamaxıda olduğum bir oteldə eyni qayda ilə verdiyim sifarişdən sonra mənə bəlli oldu ki, yarımlitrlik qazlı suyu mənə 4 manata satıblar.

*Əshabi-Kəhf ziyarəti və başıma düşən damcı*

Səfərimizin yeni açılan günü Qurban bayramına təsadüf edirdi. Bu səbəbdən də planımızda Əshabi-Kəhfi ziyarət etmək vardı. "Qurani-Kərim"də adı zikr olunan həmin məkanda xüsusilə dini bayramlara təsadüf edən günlərdə ziyarətçi həddən artıq çox olur. Yerli əhalidən çox xaricilərə və Azərbaycanın digər regionlarından olan ziyarətçilərə rast gəldik. Məşhur ziyarətgahda yaradılan infrastruktura da söz ola bilməz. Təmizlik ən yüksək səviyyədə təmin edilir. Ziyarətgahda "Damcıxana" deyilən bir yer var. Qayaların ortasında oturub niyyət tutursan. Tutduğun niyyət safdırsa, başına su damcısı düşür. Adam dəhşətə gəlir və Allahın yaratdığı qüdrət nişanəsinə təəccüblənməyə bilmirsən. Çünki qupquru qayaların ortasında birdən-birə damcının haradan əmələ gəlməsi hələ də sirr olaraq qalır.Yəqin ki, niyyətim saf olduğu üçün başıma damcı da düşdü.

İkinci ziyarət etdiyimiz yer Naxçıvan şəhərinin mərkəzində yerləşən Şəhidlər xiyabanı oldu. Buradakı muzey diqqətimizi çəkdi. Maraqlandıqda bəlli oldu ki, orada tikilən Azərbaycanda yeganə olan Xatirə Muzeyidir.

*Dəmir barmaqlıqlarsız mənzillər*

Şəhəri gəzərkən binaların fasadlarının əsaslı təmir edilməsinə də diqqət yetirdim. Maraqlı burasıdır ki, Naxçıvandakı binaların yalnız yola baxan tərəfi deyil, həm də içəri üzü əsaslı təmir olunur. Bu müqayisəni təsadüfən aparmadım. Çünki kənar yerlərdə biz binaların



yalnız üz hissəsinin üzlənməsi ilə çox rastlaşırıq. Binalardakı mənzillərin heç birində dəmir barmaqlıqlara rast gəlinmir. Bunun səbəbi isə kriminogen durumun sabitliyilə izah olunur.

Qeyd edim ki, Naxçıvanda səliqə ilə salınan yollar, xiyabanlar, binalarla yanaşı, gözəl restoranlar da fəaliyyət göstərir. Təsadüfən oturduğumuz bir taksi sürücüsündən ən yaxşı restoranlardan birinə bizi aparmağı xahiş etdik. Taksi demişkən, qeyd edim ki, şəhərdə işləyən taksilər Naxçıvanın yerli istehsalı olan "NAZ Lifan" maşınlarıdır. Təzə və səliqəli olan həmin maşınlara oturub şəhərin daxilində hara getsən, 2 manatdan artıq pul almayacaqlar. Taksi sürücüsü bizə "Nuh yurdu" adlanan restoranı məsləhət gördü. Naxçıvanda olduğumuz restoranlarda diqqətimi bir məqam xüsusilə cəlb etdi. Restoranların ən mənzərəli yerlərində ailəvi gələnlər üçün yer ayrılır. Kimsə ailəsiz, dostları ilə gəlib hətta bir oturmaqla 1000 manat hesab verməyə hazır olsa belə, ona həmin yerdə məskən salmağa icazə vermirlər. Bu prinsipə dəmir qayda kimi əməl olunur.

"Nuh yurdu" restoranı çox mənzərəlidir və zövqlə inşa olunub. Sifariş verdiyimiz zaman ancaq Naxçıvanın yerli məhsullarını istədik. Şahidi olduq ki, blokada şəraitində olmasına baxmayaraq, muxtar respublikada nə desən, istehsal olunur. Yerli pivənin, arağın, mineral suların, balığın və dondurmanın dadına söz ola bilməzdi. Xidmət personalı ilə bağlı xoşuma gələn başqa bir məqam bu oldu ki, ofisiantlar nisbətən bahalı sifarişin qiymətini müştəriyə bəri başdan deyir. Yəni hiss olunur ki, qonaqlara xüsusi hörmət var, heç kim onların narazı qalmasını və ya aldadılmasını istəmir.

*Şərurun Gümüşgölü*

Sən demə, qismətimizdə inzibati ərazi vahidinə görə Naxçıvanın ən böyük rayonu olan Şəruru da görmək var imiş. Oradan olan dostların dəvəti ilə Şərurda olduq. Rayonun bütün görməli yerlərini gəzdik. Rayon mərkəzinə, demək olar ki, bitişik olan Yengicə kəndində tikilən möhtəşəm orta məktəb binasının əzəməti məni çox təəccübləndirdi. Bir neçə dəfə desələr də, həmin binanın məktəb olduğuna inanmadım. İlk görünüşdən əzəməti və səliqəsilə seçilən binanın hansısa dövlət qurumu və ya institut olduğunu zənn etdim. Gəzdikcə gördüm ki, bütün kəndlərdə əhali sayına uyğun olan təzə məktəb binaları və kənd mərkəzləri tikilib. Sonra Şərurun simvolu sayılan Gümüşgölə getdik. Buradakı Arpaçay üzərində Naxçıvanın elektrik enerjisinə olan ehtiyacının bir qismini ödəyən iki su elektrik stansiyası tikilib.

*Naxçıvanda çox rast gələnən iranlı turistlər*

Qeyd edim ki, Naxçıvanda həddən artıq çox iranlı turist gördüm. Naxçıvanın "Atabəylər" deyilən məhəlləsindəki bir restoranda təsadüfən rastlaşdığım ixtisasca rejissor olan iranlı turistlə qısa dialoqumuz oldu. Onun Naxçıvan barədə təəssüratları ilə maraqlandım. Cavabı məni təəccübləndirdi: "Elə bilirəm ki, Təbrizdəyəm". Azərbaycanın başqa yerlərində olub-olmaması ilə maraqlandım. Gördüm ki, gəzmədiyi yer qalmayıb. Yaşlı turist dedi ki, yalnız burada özünü Təbrizdəki kimi rahat hiss edir. Bəlkə də, bu sözün deyildiyi məkan bu fikirlərin səsləndirilməsinə öz təsirini göstərirdi. Elə bu vaxt beynimdə tarixə ekskurs etdim və bu qənaətə gəldim ki, Atabəylərin adını daşıyan məhəllədəki söhbətimiz təsadüfən belə şirin alınmır. 12-ci əsrdə mövcud olan bu adda dövlətin paytaxtı həm Təbriz, həm də Naxçıvan olub. Yəqin təəssüratın formalaşmasında bu cazibənin də xüsusi rolu var imiş.

Muxtar respublikada qaldığım oteldə Avropa ölkələrindən olan turistlərə də rast gəldim. Onlar Naxçıvanda çoxlu sayda qədim abidələrin və muzeylərin olmasından məmnunluq ifadə edirdilər. Yeganə gileyləri təyyarə biletinin baha olması ilə bağlı idi. Mən heç bilmirdim ki, əcnəbi vətəndaşlara Naxçıvana uçmaq üçün bilet fərqli qiymətə, özü də dollarla satılır. Bunu da bizim pula çevirəndə 200 manatdan artıq edir. Yaxşı olardı ki, AZAL blokada şəraitində yaşayan bir bölgəyə turizm axınının qarşısına maneə çəkməmək üçün bu istiqamətdə əməli bir iş görsün.

Ardı 4-cü səhifədə

### Ulu öndər Heydər Əliyevin yaşadığı bina

Mənim muxtar respublikada görmək istədiyim yerlərdən biri də ümummilli lider Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda yaşadığı bina idi. Naxçıvan Dövlət Televiziyası ilə üzbəüz olan həmin səliqəli beşmərtəbəli binaya dahi siyasətçinin barelyefinin vurulduğunu gördüm və onun önündə durduğum tarixi əbədiləşdirmək üçün şəkil də çəkdirdim.

Naxçıvanda xüsusi önəm verilən məsələlərdən biri də ticarət obyektləri, restoranlara əcnəbi adların qoyulmasına olan qadağadır. Məsələn, Naxçıvanda dərman satılan yerlərin adı aptek deyil, əczaxana kimi yazılır. İsti havada Günəşdən qorunmaq üçün qadınların əlində çətir tutması isə məni lap təəccübləndirdi. Bunu yüksək mədəniyyətin nümunəsi kimi qəbul etdim. Çünki belə mənzərəyə dünyanın inkişaf etmiş şəhərlərində belə, nadir halda rast gəlinir.

### Ordubad səfəri

Növbəti günümüzü isə Azərbaycanın ən qədim diyarlarından sayılan Ordubada səfərə sərf etdik. Tam məsuliyyətlə demək olar ki, Ordubadı dərindən tanımaq, oradakı tarixi yerlərlə tanış olmaq üçün bir neçə gün insana kifayət etməz. Ordubada girişdə qədim bir buzxana var. Bir neçə əsrin yadigarı olan həmin abidə ilə tanışlıqdan sonra bəlli oldu ki, qədimdə orada buz saxlayıblar. Hətta Naxçıvanın ən isti yay aylarında belə, orada buz olurmuş. Turistlərin böyük marağına səbəb olan həmin yerdə hazırda milli yeməklərin bişirildiyi restoran fəaliyyət göstərir. Məkanda Ordubad pitisini dadmaq üçün bir neçə metr yerin altına düşməlisən.

Ordubadda xristianların ibadəti üçün nəzərdə tutulan bir məbəd də var. Çar Rusiyası vaxtında həmin məbəd xristian əsgərlərin ibadət etməsi üçün tikilib. Belə abidənin ucar bir dağ rayonunda bu günə kimi qorunub saxlanması əhalimizin multikultural dəyərlərə sadiqliyinin ən bariz nümunəsi sayıla bilər. Ordubadda "Qeysəriyyə" adlandırılan binada Tarix-Diyarşünaslıq Muzeyi fəaliyyət göstərir. "Qeysəriyyə"nin Ordubaddan başqa dünyanın daha iki yerində olduğunu dedilər. Muzeyin direktoru Vilayət Bağırov bizi tarixi binada olan bütün eksponatlarla tanış etdi. Tarixi keçmişlə müasirliyin yaddaşını özündə cəmləyən muzeylə tanışlıq Ordubad barədə ətraflı təsəvvür əldə etməyə çox kömək edir. Bir sözlə, Ordubada aid nə varsa, həmin muzeydə görmək olar.

Rayonun inzibati mərkəzi olan Ordubad şəhəri öz qədim görkəmini qoruyub saxlayıb. 7 məhəllədən ibarət olan şəhərin bütün məhəllə mərkəzləri eyni üslubda salınıb. Hər məhəllə mərkəzində çinar ağacı, çeşmə və məscid var. Deyilənə görə, qədim zamanlarda hər məhəllə bir növ istehsal üzrə ixtisaslaşıbmış. Orada işləyən fəhlələrin ibadətə getməsi vaxt aparmasın deyə, məhəllə mərkəzlərində deyilən şərait yaradılıb. Dübəndi çayı üzərində tikilən gözəl mənzərəsi olan çay evində Ordubad limonu ilə çay içməmisənsə, hesab elə ki, Ordubadı görməyibsən.

### Naxçıvanda bulvar da var

Təbiidir ki, şahidi olduğum bütün xoş mənzərələr özözünə yaranmayıb. Bu məsələdə zəhməti, əzmkar fəaliyyəti olan Naxçıvan Muxtar Respublikası rəhbərliyinin rolunu xüsusi vurğulamaq lazımdır. Bakıya yola düşəcəyimiz günü də boşa verməmək üçün həmin zamandan da maksimum istifadə etməyə çalışdıq. Eşidəndə ki, Naxçıvanda bulvar salınıb, inanmağım gəlmədi. Oranı görmək marağı məni bürüdü. Gedib deyilən məkana çatdıq. Uzunoba gölünün sahilində, doğrudan da, ən müasir infrastrukturu özündə birləşdirən gözəl bulvar salınıb. Bulvarı gəzib dolandıqdan sonra ətrafdakı restoranlardan birində gölün özündən tutulan balığın dadına baxdıq.

Muxtar respublikada olduğum bir neçə gün ərzində bir qənaətə gəldim: ailəvi istirahət etmək üçün ən ideal bir məkandır. Ancaq blokada şəraitində olan Naxçıvanın turizm potensialı dünyaya hələ lazımi şəkildə tanıdılmayıb.

Hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı bu istiqamətdə əlindən gələni etməlidir.

Bakıya yola düşmək zamanı gəlib çatanda bəlli oldu ki, Batabata getməyə vaxt qalmayıb. Şahbuzun bir başqa aləm olduğunu deyirlər. Oraları görməyi isə növbəti səfərimizə saxladıq. Hava limanına gəlib Bakıya uçan təyyarəyə minəndə Bakıdakı əziyyəti çəkmədim. Müasir standartlara cavab verən gözləmə zalından birbaşa təyyarəyə oturub doyunca gəzib doya bilmədiyim qədim diyara əlvida dedim. Təbii ki, birdəfəlik yox!

**Mahir MİRZƏYEV**
***Azinforum.az informasiya portalı***

## Yeni mövsümdə də Naxçıvan teatrının repertuarı maraqlı tamaşalarla zəngin olacaq



***Uzun illərdir, hər ilin sentyabr-oktyabr ayları mədəniyyətimizin əsas aparıcı sahələrindən sayılan teatrların yaradıcılıq mövsümünün açılışı olur. Bu, bir qayda olaraq, Azərbaycanda uzun illərdir ki, ənənə halını alıb. Hətta ölkənin tanınan teatrları müxtəlif rayonlarda, əsaslı teatr tarixi, ənənəsi olan bölgələrimizdə teatr festivallarına qatılmaqla bu əlamətdar hadisəni təntənə ilə qeyd edirlər. Bu ənənə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında da yaşayır. Bu günlərdə Naxçıvan teatrının 134-cü mövsümünün açılışı olacaq. Bu dəfə tamaşaçılara Nəriman Nərimanovun "Nadir şah" faciəsi təqdim ediləcək. Bəs teatrda ümumi işlər necədir, növbəti birillik yaradıcılıq mövsümü ərəfəsində tamaşaçılara hansı maraqlı tamaşalar təqdim olunacaq? Bu sualların cavabını tapmaq üçün Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyevlə söhbətləşdik:***

***– Rza müəllim, yeni hazırlanan tamaşa haqda məlumat verməyinizi xahiş edirik.***

– Mən, əslində, tamaşa yox, tamaşalar deyərdim. Çünki hazırda teatrda iki tamaşanın məşqləri gedir. Bunlardan biri Nəriman Nərimanovun "Nadir şah" faciəsi, digəri isə Elçinin "Arılar arasında" dramıdır. Kollektiv "Nadir şah"ı məzuniyyətə getməzdən əvvəl hazırlamağa başlayıb. İlk məşqlərə may ayında start verilib. Məqsəd iyun ayının sonuna qədər onu tamaşaçıların ixtiyarına vermək idi. Amma bilirsiniz ki, may və iyun aylarında cəmiyyətin diqqətini çəkən çoxlu hadisələr baş verib. Bunların əksəriyyəti teatrımızda qeyd edilir. Bu isə təbii ki, məşqlərə bir qədər ara verilməsinə səbəb olur. Ona görə də qərara alındı ki, kollektiv məzuniyyətdən qayıdandan sonra, yəni avqust ayının 15-dən növbəti məşqlərə başlansın. Belə də oldu. İndi tamaşa tam hazırdır.

***– Bir məqama diqqət yetirək. Teatr, adətən, bütün kollektivlə məzuniyyətə gedir. Bəs mövsüm elə teatrın məzuniyyətdən qayıtması ilə başlamırmı?***

– Xeyr, teatrın kollektivi məzuniyyətdən qayıdır. Amma bu yaradıcılıq mövsümünün açılışı demək deyil. İstənilən tamaşanın müəyyən müddətə məşqləri və hazırlığı gedir. Digər tərəfdən aktyorların rol üzərində işləri, yenidən səhnəyə uyğunlaşması prosesi qaçılmazdır. Ona görə də biz "yaradıcılıq mövsümü" deyirik. Tamaşaçı gəlir və bu yaradıcılıq mövsümü mütləq tamaşaçı nəfəsi, alqışı ilə başlayır. Bir sözlə, bu prosesə tamaşaçı xeyir-duası mütləq lazımdır.

***– Bəs ikinci tamaşa?***

– İkinci tamaşa Elçinin "Arılar arasında" dramıdır. Bu tamaşanın da artıq səhnədə məşqləri gedir. Ona isə avqustun axırından başlamışıq. Tamaşanın rejissoru Xalq artisti Kamran Quliyevdir. Maraqlı burasıdır ki, indiyə qədər məşqlər iki növbədə – səhər və günorta gedirdi. Aktyorların bəziləri "Nadir şah"ın məşqlərindən çıxıb ikinci tamaşanın məşqlərinə qatılırdılar.

***– Bu, çətin deyil?***

– Düzü, aktyor sənəti ilk baxışdan asan görünsə də, həmişə çətin olub. Biz Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində oxuyanda müəllimlərimiz deyirdilər ki, əgər fəhlə gün ərzində, misal üçün, 150 kilokalori itirirsə, aktyor tamaşalarda 250 kilokalori enerji itirir. Çünki bu prosesdə həm məsuliyyət, həm başqalaşma, həm diqqət olur, həm də səsə, mizanlara, özünə nəzarət gedir. Bu isə çox çətindir. Hələ buna tərəf-müqabilinin çaşması, musiqinin, işığın bəzən yerində verilməməsi, tamaşaçı həyacanı da əlavə olunursa, onda aktyor işi daha da çətinləşir. Qaldı ki, iki tamaşanın məşqlərinə, aktyor sənətinin kökündə başqalaşmağı bacarmaq dayanır. Bu isə əsl aktyora məşq prosesində sənətin həzzini yaşadır. Ona görə də heç kəs narazılıq etmədi.

***– Məncə, "Nadir şah" faciəsi 1997-ci ildə repertuara salınmışdı.***

– Bəli, o zaman Bakıdan Elçin Mirzəbəyli rejissor kimi dəvət olunmuşdu. Nadir şah obrazını Xalq artisti Kamran Quliyev oynayırdı. İsti avqust günləri idi. Kollektiv bu tamaşanı o qədər həvəslə hazırladı ki, cəmi 19 günə tamaşa təhvil verildi. Sonra onunla Bakıda, Sumqayıtda, İran İslam Respublikasında səfərdə olduq. Hər yerdə də maraqla, alqışlarla qarşılandı. Bu dəfə isə tamaşanın rejissoru Tofiq Seyidovdur. Nadir şahı isə özüm oynayıram.

***– Sizcə, hansı daha maraqlı alınıb, 19 il əvvəlki, yoxsa indiki?***

– Bu sualın cavabını tənqidçilər və tamaşaçılar verəcək. Amma mənim fikrimcə, 1997-ci ildə ilk dəfə səhnəyə qoyulduğu üçün hamıda qəribə bir eyforiya var idi. Bir də bu tamaşa müstəqillik illərində yenidən dirçələn Naxçıvan teatrının canlanmasına səbəb oldu. O zaman teatrın əvvəlki şöhrətinin, yaradıcılıq atmosferinin özünə qaytarılmasına çalışılırdı. Əslində, bu prosesə hələ 1992-ci ildə ulu öndər Heydər Əliyev Naxçıvan teatrını ozamankı ölkə iqtidarının məkrli planlarından qorumaqla başlamışdı. Çünki həmin vaxt ölkəni idarə edən səriştəsiz adamlar teatrların gəlirsiz sahə olduğunu bəhanə gətirməklə onları bağlamaq istəyirdilər. Ümummilli lider isə çox sevdiyi və həmişə hörmətlə yanaşdığı Naxçıvan teatrını qoruyabildi. Bu gün isə ənənə davam edir. 2012-ci ildə teatrımız ən müasir şəkildə təmir edilib, istənilən şərait yaradılıb. Bir neçə il əvvəl Amerika Birləşmiş Ştatlarından gələn musiqiçilər teatrın qarşısında konsert verirdilər. Bina ilə tanış olmaq istədilər, mən də teatrı gəzdirdim. Etiraf etdilər ki, ağıllarına da gəlməzdi ki, belə bir müasir və klassik memarlıq üslubunda olan teatr binası görəcəklər. Nə isə... kənara çıxmayaq, tamaşaçılar gəlib "Nadir şah"da özləri aktyor oyununa və rejissor işinə qiymət verərlər.

***– Yeri gəlmişkən, rejissor baxımından vəziyyət necədir? Teatrda yetərincə təcrübəli olan sənətkarlar var. Bəs rejissor necə?***

– Əvvəllər yaxşı rejissorlar olub. Ta Səməd Mövləvidən başlamış Miribrahim Həmzəyev, Baxşı Qələndərli, Vəli Babayev, Əliqismət Lalayev, Vaqif Əsədov kimi teatrda yaxşı rejissorlar olub. 1992-ci ildə şəhid olan Vaqif Əhmədov gənc rejissor kimi son ümid yerimiz idi. Amma onu da Qarabağ uğrunda döyüşlərdə itirdik. Son illər Xalq artisti Kamran Quliyev bu işi öz öhdəsinə götürüb. Düzdür, teatrın aktyorlarının bəziləri rejissor kimi tamaşalar hazırlayır. Xalq artisti Rövşən Hüseynov bir neçə tamaşa hazırlayıb. Amma o, daha çox aktyor kimi çıxış etməyə üstünlük verir. Bu gün teatrın inkişafı üçün təcrübəli, aktyor oyununu, səhnə hərəkətini yaxşı bilən peşəkar rejissorlara ehtiyac var.

***– Teatra gənclər cəlb olunurmu?***

– Bu mövzu teatrda həmişə müzakirə obyekti olub. Bəli, indi teatra gənclər gəlirlər. Amma bir müddətdən sonra çıxıb gedirlər. Açığı, gələn gənclər elə bilirlər ki, asandır, bir günün içərisində, bir tamaşa ilə peşəkar, tamaşaçıların sevimlisinə çevrilən aktyor və ya aktrisa olacaqlar. Bəzilərinin həm zahiri görünüşü, həm sənətə marağı adamın diqqətini çəkir. İşə gələndə isə hələ çox zəif olduğu ortaya çıxır. Müasir tamaşaçı isə həddindən artıq tələbkardır. Son illər Naxçıvan Dövlət Universitetində Aktyorluq ixtisasının açılması bizi sevindirdi. Hələ ki ordan məzun olan bir aktrisa – Şölə Novruzbəyli teatrda işləyir. Bir də Fidan Qasımova gəlmişdi, o da əlavə təhsil almaq üçün Bakıya getdi. İkinci kurs tələbəsi Səyyad Məmmədov da teatrla sıx əməkdaşlıq edir. Ancaq bu il məzun olub teatra gələn yoxdur.

***– Tamaşaçılar yeni mövsümdə ancaq iki tamaşaya baxacaqlar?***

– Əlbəttə, yox. Bizim repertuarımızda maraqlı tamaşalar var. Ötən mövsümlərdə Həmid Arzulunun "Əlincə qalası", Nəriman Nərimanovun "Nadanlıq" dramı əsasında hazırlanan "Nadanlıq və ya qəfil telefon zəngi", Tuncər Cücənoğlunun "Rəngsaz" komediyası, Tale Həmidin "Yəhya bəy Dilqəm" faciəsi və digər tamaşaları hazırlamışıq. Təbii ki, bunlar da nəinki Naxçıvan şəhərinin, həmçinin rayonlarımızdakı tamaşaçılara da təqdim ediləcək.

***– Bəs gələcəkdə hansı tamaşaları hazırlamağı planlaşdırırsınız?***

– Düzü, hələ repertuar planını təsdiqləməmişik. Bu iş, adətən, hər ilin noyabr ayında olur. Amma növbəti mövsümdə də çalışacağıq ki, tamaşaçılara maraqlı tamaşalar təqdim edək. Onu da etiraf edim ki, son vaxtlar dram əsərləri baxımından bir az əziyyət çəkirik. Bizim teatrda həmişə tarixi əsərlərə xüsusi yer ayrılıb. Teatr həm də bir məktəbdir. Ali Məclis Sədrinin dediyi kimi, həmişə tarixi tamaşalar tamaşaçılar üçün bir tarix dərsidir. Hadisələri adamlara canlı şəkildə təqdim edəndə o daha təsirli və yaddaqalan olur. Amma o da var ki, əksər maraqlı əsərləri artıq səhnələşdirmişik. Yenisini isə yazanlar çox azdır. Yazılanların bəzisinin üslubu və ustalığı çatmır, bəzisinin süjet xətti qane eləmir, bəzisinin adı gözəl səslənsə də, əsərin tərbiyəvi əhəmiyyəti yox dərəcəsində olur. Ona görə də uzun müddət seçim etmək məcburiyyətində qalırsan. Tamaşaçı bəzən komediya istəyir, bəziləri tarixi dramlara üstünlük verir, bəziləri Avropa ədəbiyyatından hansısa pyesi görmək arzusunda olur. Ona görə də repertuar seçiminə xeyli vaxt sərf edirik. Son nəticədə isə çalışırıq ki, tamaşaçı razı qalsın.

***– Çox sağ olun, Rza müəllim, əlbəttə, suallar çoxdur, amma növbəti dəfə tamaşalardan söhbət edərik.***

**Səməd CANBAXŞIYEV**


### Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi
### *2016-cı il üçün kotirovka elan edir*

1. Payız-qış mövsümü üçün əşya əmlaklarının satın alınması.

Kotirovka 10 oktyabr 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir.

Kotirovka zərfi 11 oktyabr 2016-cı il tarixdə saat 11$^{00}$-da Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Əlaqələndirici şəxs: Murad Cabbarov**
**Telefon/faks: 544-48-34**
**Ünvan: Naxçıvan şəhəri,**
**Cəlil Məmmədquluzadə küçəsi**


### *İtmişdir*

Bağırova Qiymət Hidayət qızının adına Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi tərəfindən verilmiş şəhadətnamə itdiyindən etibarsız sayılır.

* * *

Abdullayev Elşad Abuzər oğluna məxsus avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Rauf Əliyev**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1050. Sifariş № 735**